**Bakıda fəaliyyət göstərən iaşə obyektində nöqsanların aşkarlanmasına dair məlumat**

**(1 oktyabr 2024)**

Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşları tərəfindən keçirilmiş monitorinq zamanı Bakı şəhəri, Nərimanov rayonu, M.Araz küçəsi, ev 4 ünvanında fəaliyyət göstərən, fiziki şəxs Qasımov Cahangir Qəhrəman oğluna məxsus iaşə obyektində bir sıra nöqsanlar aşkarlanıb.

Belə ki, masaların və qida ilə təmasda olan səthlərin asan yuyulub təmizlənə bilən gigiyenik materialla üzlənmədiyi, işçilərin əllərinin, qida məhsullarının və avadanlıqların yuyulması prosesinin eyni yuma çanağında həyata keçirildiyi, tullantı qablarının ağzı açıq şəkildə saxlanıldığı, havalandırma sisteminin quraşdırılmadığı, işçi heyətin müvafiq geyimlə təchiz olunmadığı və mütəmadi olaraq tibbi müayinədən keçmədiyi, təmizlik inventarlarının və yuyucu maddələrin saxlanılması, eləcə də işçilər üçün ayrıca sahə və ya dolabın təşkil edilmədiyi və digər nöqsanlar müəyyən olunub.

Faktla bağlı qanunvericiliyə uyğun olaraq müəssisənin fəaliyyəti məhdudlaşdırılıb və rəhbərliyi barəsində inzibati protokol tərtib edilib.